Azərbaycan Respublikası Saatlı rayonu
İcra Hakimiyyəti başçısının

# S Ə R Ə N C A M I
№ 17

Saatlı şəhəri 09 fevral 2016-cı il

Saatlı rayon İcra Hakimiyyətində
Apellyasiya Şurasının yaradılması barədə

Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli Fərmanını rəhbər tutaraq

q ə r a r a   a l ı r a m:

1. Sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədilə aşağıdakı tərkibdə rayon Apellyasiya Şurası yaradılsın:

Apellyasiya Şurasının sədri:

Salahov Rahib Əli oğlu - Saatlı rayon İcra Hakimiyyəti başçısının müavini, Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri

Apellyasiya Şurasının üzvləri:

Abdiyev Nurəddin Səməd oğlu - Saatlı rayon İcra Hakimiyyəti başçısı aparatı Hüquq şöbəsinin müdiri

Cəbrayılov Elnur Rizvan oğlu - Saatlı rayon İcra Hakimiyyəti başçısı aparatı Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri

İskəndərov Yusifəli İskəndər oğlu - Saatlı rayon İcra Hakimiyyəti başçısı aparatı Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar

Əsədov Ağa Ziyad oğlu - Saatlı rayon İcra Hakimiyyəti başçısı aparatı Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi müdirinin müavini

Həsənov Azər Əliağa oğlu - Saatlı rayon İcra Hakimiyyəti başçısı aparatı İctimai-siyasi və Humanitar məsələlər şöbəsinin baş məsləhətçisi

Əzimov Famil Əzizalı oğlu - Saatlı rayon İcra Hakimiyyəti başçısının Qara Nuru kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi

2. Apellyasiya Şurasına tapşırılsın ki, daxil olan şikayətlərlə əlaqədar hərtərəfli, tam və obyektiv araşdırma apararaq baxılan işlərin nəticəsi barədə əsaslandırılmış şəkildə qərar qəbul etsin.

3. Apellyasiya Şurasına tapşırılsın ki, baxılan şikayətlərin uçotunu aparsın, onları təhlil edərək icmallaşdırsın və nəticəsi barədə rayon İcra Hakimiyyətinin başçısına yarımillik və illik arayışlar təqdim etsin.

4. Yerli İcra Hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsəsnaməsinə uyğun olaraq Apellyasiya Şurası öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərəkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı surətdə fəaliyyət göstərsin.

5. Rayon İcra Hakimiyyəti başçısı aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Allahverdiyev Vasif Məhbub oğluna tapşırılsın ki, sərəncamın surətinin əlavə olunmuş göndərilmə ünvanının siyahısına uyğun göndərilməsini təmin etsin.

6. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Siraqəddin Cabbarov